

# KƏTANDAN XALÇAYADƏK

Mətn: Türnzalə Babayeva

Azərbaycan və Rusiya Federasiyasının xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının vitse-prezidenti, professor Tahir Salahovun əsərləri xalçalar üzərində əbədiləşir.



1.

Tahir Salahov Azərbaycanın sərhədlərindən çox-çox uzaqlarda tanınmış rəssamlarımızdandır. Onun haqqında indiyədək çox deyilib, çox yazılıb. Əsərləri dünyann ən məşhur muzeylərində sərgilənib. Rəssam son illərdə tam yeni, fərqli bir yaradıcılıq tendensiyası ilə sənətsevərlərin görüşünə gəlir. Əslində bu tendensiya həm yeni, həm də ənənəvidir. "Görkəmli rəssamın əsərləri xalçalar üzərində ikinci baharını yaşayır",-desək, yanılmarıq. "Azərbaycan xalçaları"nın rəssamla söhbəti də elə bu haqdadır.

Tahir Salahovu xalçalara uzun qış gecələri, uşaqlıq duyğuları, hissləri bağlayır. Hər qış yerə döşənən, evə hərarət gətirən xalçalar onun kövrək uşaqlıq xatirələridir:

*"Bizim evdə xeyli xalça olardı. Atam xalça kolleksiyaçısı deyildi. Amma xalçalara böyük marağı olduğundan Azərbaycanın hansı bölgəsinə getsə, oradan gələndə xalça gətirərdi. Anam da adəti üzrə xalçaları qışda yerə döşəyər, yayda isə yığışdırardı. Yadımdadır, şaxtalı qış axşamlarında bibim Bibixanım yatmazdan əvvəl bizə nağıl danışardı. Hamımız xalçaların üstündə oturar, diqqətlə qulaq asar, özümüzü nağıllardakı qəhrəmanların yerində təsəvvür edərdik. Xalçalar, nağıllar, bibim... Mənim üçün bu məfhumlar bir-birinə bağlıdır".*

Gələcəyin məşhur rəssamını hələ uşaqlıqdan xalçanın naxışları, rəngləri düşündürürdü. İllər keçir... Uşaqlıq həvəsi peşəkar marağa çevrilir. Dünya şöhrətli rəssam onlarla əsərini xalçaya köçürür. Bu gün də davam edən ənənənin təməli isə təxminən ötən əsrin 50-ci illərində - Tahir Salahovun Azərbaycan Rəssamlar İttifaqında sədr müavini işlədiyi vaxtda qoyulub.

*"Xalça insanı daim düşündürür. Onun bir çox süjetlər üçün əlverişli olması haqqında götür-qoy edirdim. Günlərin bir günü əsərlərimi xalı üzərinə köçürməyə qərar verdim. Bu işi həm keyfiyyətlə, həm də böyük məsuliyyətlə, qəlbinin hərarətilə görə bilən ustalara rast gəlməyim isə ayrıca bir təkan idi. Hər əsərin bir yaranma səbəbi, bir təkanı olur. Bütün siyasi, iqtisadi problemlərin içində bir vətəndaş olaraq məni həmişə insanın taleyi düşündürüb. Bir zamanlar "Növbədən qayıdanlar" adlı işimlə bağlı dəniz neftçilərini çəkəndə, ümumiyyətlə neftlə bağlı əsərlər üzərində çalışarkən dənizdə həlak olan Mixail Kaveroçkin, "Sergey Çvanov" katerinin fədakar dənizçilərindən ilham alırdım. Xəzər, neft buruqları, neftçilər.... bütün yaradıcılığımdan keçən xətdir. 2007-ci ildə "Odlar Yurdu" triptixində əzəmətli bir qazma qurğusunu təsvir etdim. Bu, mənə bir qədər rahatlıq gətirdi. Açıq dənizdə çalışan insanların qarşılaşdıqları təhlükəni dəfələrlə azaldan belə bir qurğunun təsvirini vermək çoxdankı arzum idi... Xalı üzərində bu əsər elə kətandakı qədər möhtəşəmdir. 2x6 metrlik "Sənə, ey bəşəriyyət!" adlı panno-xalça da çox əzəmətlidir. Bu əsərin 1960-cı ildə, ilk kosmos uçuşu ərəfəsində ərsəyə gətirilməsi, az qala, bir vəhy kimi də qəbul olunurdu.Əsərin rəngkarlıq variantı iri həcmli divar çalışması təəssüratı yaradır. Onu harasa aparıb sərgiləmək çətin prosesdir. Gəncədə onu eynilə xalçaya köçürdülər. Amma bu xalçanın kənarlarına naxış vurulmadı. Çünki bu əsər kosmosu əks etdirir. Kosmosun isə hüdudları yoxdur, o sərhədsizdir. Ona görə də əsəri məhdudlaşdırmadım. Çox təsirli əsər yaranmışdı. Mən onu sonralar Rusiyada, Fransada nümayiş etdirdim".*

Tahir Salahov Azərbaycan Rəssamlar İttifaqında sədr müavini işlədiyi vaxtda Fransadan Bakıya qonaq gəlir. Barəsində ətraflı məlumat verilməyən qonaq isə məşhur fransız rəssamı Jan Lyursa olur:

*"Qonaq Bakıya xanımı ilə gəlmişdi. Onları qarşılayıb mehmanxanada yerləşdirdim. Paytaxtın görməli yerlərinə baxmaq üçün bir həftəlik proqram hazırladım. Bu zaman məlum oldu ki, bu, qonağın Bakıya ikinci səfəridir. Jan Lyursa dünya şöhrətli beş rəssamdan biri idi: Pikasso, Leje, Brak, Revera*





2.



3.



4.



5.



6.



M... Azərbaycan ... Kitabxanası



8.



9.

10.



11.





*və Lyursa. Lyursanın Bakıya maraq göstərməsinin səbəbi isə onun Fransada həm də tekstil rəssamlığı, qobelenlə məşğul olması idi. Bakıda ona çoxlu xalçalar göstərdim. Onu Lətif Kərimov və Toğrul Nərimanbəyovla tanış etdim. Bu tanışlıq bizim üçün şərəf idi. Lyursa ahıl yaşlarında olsa da, paytaxtımızı gəzməkdən doymur, Azərbaycan incəsənətinə, mədəniyyətinə böyük maraq göstərirdi. O, rəsm əsərlərini qobelenə köçürdüyünü deyirdi. Sonralar öyrəndim ki, bu, Fransada ənənə halı alıb. Pikasso, Brak, Matiss də məşhur əsərlərini ilmələrin yaddaşında əbədiləşdirirdilər. Fikirləşdim ki, mədəni sərvətimiz olan xalçaçılığın inkişaf etdiyi bir ölkədə bunu niyə biz də etməyək?*

Tahir Salahov əsərlərinin xalçaya köçürülməsini onların qarantı, sığortası hesab edir:

*"Böyük rəsm əsərlərini harasa aparmaq çətindir. Həm ölçüləri buna imkan vermir, həm də onlar daşınan zaman zədələnə bilərlər. Xalçaya köçürülmüş əsəri isə daşımaq rahatdır. Xalçanın zədələnmə ehtimalı da azdır. Təxminən 70 əsərimi xalçaya köçürtdürmüşəm. Bakı, Sumqayıt, Gəncə toxucuları və xalça rəssamları ilə işləmişəm. Nəticədə, bu gün mənim kolleksiyamı Azərbaycanın müxtəlif regionlarından istedadlı insanların əl işləri bəzəyir. Bu əsərlər mənim üçün çox dəyərlidir. Bu insanlar mənim yaradıcılığımı öz gördükləri kimi əks etdiriblər. Düzdür, onlardan xahiş edirdim ki, mənə yeni əsər yaratmasınlar, əsərlərimi olduğu kimi xalçaya köçürsünlər. Bu əsərlər dəqiq yerinə yetirilsələr də, istər-istəməz xalçaçı-rəssamlar və toxucular öz duyğularını, hisslərini bu əsərlərə köçürüblər. Məsələn, "Dədə Qorqud" əsərimi rəssam Eldar Mikayılov xalçaya köçürdü. Xalçanın əsas hissəsi mənim əsərimdən ibarət olub, qalan ornament hissəsi onun özünə aid idi. Xalça təxminən 6-8 ay ərzində hazır oldu. Əsərim olduğu kimi xalçaya köçürülmüş, hər bir rəng çaları eynilə verilmişdi. Bu xalçanın üzərində mənim və Eldar Mikayılovun adı yazılıb. Mən xalça üzərinə köçürülmüş əsərlərdə xalçaçı-rəssamların adının qeyd olunmasını mütləq sayıram. Çünki onların da bu işdə böyük zəhmətləri var".*

Görkəmli rəssam bu gün də fırçasının məhsulu olan sənət nümunələrini ilmələrin ixtiyarına verir. Bu işi isə "Azər-İlmə"nin xalça mütəxəssislərinə etibar edir:



12.

*"Professor Vidadi Muradovla Parisdə sərgi zamanı tanış olmuşam. O, sərgiyə Azərbaycan xalçalarından ibarət kolleksiya ilə gəlmişdi. Bir neçə zalda ornamentli xalçalar yer almışdı, digər zallarda isə müasir rəssamların xalçaları sərgilənirdi. Bunlar bir-birinə əsla mane olmur, əksinə, biri-digərini tamamlayırdı. Professor Muradovla tanışlığımız məni "Azər-İlmə"yə gətirdi. Burada gördüklərimə valeh oldum. Həm toxunan xalçalar, həm də nəşr olunan kitablar, jurnallar, tele-filmlər Azərbaycanda xalçaçılıq sənətinin inkişafına bir dəstəkdir. "Azər-İlmə"də çalışan gənc xalçaçı-rəssamların əl işləri diqqətimi cəlb etdi. Qərara aldım ki, əsərlərimdən bəzilərini onların köməyi ilə xalçalara köçürüm".*

Dünya şöhrətli rəssam "Azər-İlmə"də çalışan gənc xalçaçı-rəssam Aynurə Əsədullayeva ilə işləməyə başlayır. Bu dəfə görkəmli rus yazıçısı, Nobel mükafatı laureatı A.Soljenitsenin portreti xalçaya köçürülür:

*"Əsər Soljenitsenin Rusiyaya qayıtmasına həsr olunub. Xalça gözlədiyimdən də qat-qat yaxşı, peşəkarcasına alındı. Əldə olunan nəticə heyratamizdi. Həmin əsəri mən bu il Fransada İncəsənət Akademiyasında baş tutan fərdi sərgimdə nümayiş etdirdim. Rəsm əsərləri başqa... Amma xalçaçılıqda müşahidə olunan azca primitivizm ayrıca bir cərəyan kimi*

*özünü göstərir. Xalçaçılar mənim əsərlərimə yeni xa- rakter verir, özləri üçünsə hansısa yaradıcı imkanlar açırlar. "Azər-İlmə" ilə əməkdaşlığımı davam etdirmək fikrindəyəm. Hazırda Soljenitsen mövzusunun davamı kimi "Qırmızı təkər" adlandırdığım portret üzərində iş gedir. Xalçaçı-rəssam A. Əsədullayeva ilə xalçanı o döv- rün tələblərinə uyğun qırmızı ulduzlar, oraq və çəkiclə əhatə etmək qərarına gəlmişik. Künclərdə məhəccərlər təsvir olunacaq. Onların içində isə səkkizguşəli və "yəhudi" ulduzu yerləşdirəcəyik. Xalçada Soljenitsenin həbsxanada yazdığı qeyd dəftərləri, təltif olunduğu Nobel mükafatının emblemi də olacaq. Əminəm ki, bu əsərim də dəqiqliyi ilə xalçaya köçürüləcək. Çünki "Azər-İlmə"də çalışanlar öz işlərinin bilicisi, əsl mütəxəssisdirlər."*

Qeyd edək ki, indiyədək Tahir Salahovun "Heydər Əliyev", "Dmitri Şostakoviç", "Aydan", "Olqa Rukavişnikova", "Mstislav Rostrapoviç", "Kadakes", "Şlyapalı Varvara", "Köhnə Kadakes", "Salvador Dalinin yaradıcılıq dünyası", "Qara Qarayev", "Mirzə Ələkbər Sabir", "Rəsul Rza", "Allahşükür Paşazadə" və s. kimi rəsm əsərləri uğurla xalça üzərinə köçürülmüşdür. 2011-ci ildə isə "Tahir Salahovun xalça dünyası" adlı kataloq nəşr edilmişdir. Bu, Azərbaycan incəsənətində parlaq bir sintez, ənənə ilə müasirliyin vəhdətidir. Gözəl başlanğıcdır!.. Ümid edirik ki, bu tendensiya nəinki Azərbaycanda, həm də digər ölkələrdə geniş yayılacaq və dünya incəsənəti Azərbaycan xalçaçılarının məharətindən, istedadından yararlana biləcək.


13.


14.




15.


16.

1-17. Tahir Salahovun müxtəlif illərdə xalça üzərində əbədiləşmiş rəsm əsərləri


17.